SMART AUDIT

# AUDİTOR RƏYİ

## "BESTCOMP GROUP" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN RƏHBƏRLİYİNƏ

Biz "BESTCOMP GROUP" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİNİN ("Şirkət") 31 dekabr 2016-ci il tarixinə Maliyyə Vəziyyəti Haqqında Hesabatın, həmin tarixdə tamamlanan il üzrə Mənfəət və Zərərlər Haqqında Hesabatın, Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabatın və Kapitalda Dəyişikliklər Haqqında Hesabatın, eləcə də əsas uçot siyasəti və digər izahedici qeydlərdən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq.

### Maliyyə Hesabatlarının Hazırlanması üzrə Rəhbərliyin Məsuliyyəti

Rəhbərlik hazırkı maliyyə hesabatlarının Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, həmçinin fırıldaqçılıq və ya səhv üzündən əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin fikrincə zəruri olan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

### Auditorun Məsuliyyəti

Bizim məsuliyyətimiz apardığımız audit əsasında həmin maliyyə hesabatları üzrə rəy bildirməkdir. Biz auditi Milli Audit Standartlarına uyğun aparmışıq. Həmin Standartlar bizdən etik normalara riayət etməyi və və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizəsindən, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisənin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, auditə mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot ehtimallarının əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.
Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

### Rəy

Bizim fikrimizcə, əlavə edilən maliyyə hesabatları Şirkətin 31 dekabr 2016-ci il tarixə maliyyə vəziyyətini, həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini, pul vəsaitlərinin hərəkətini, kapitalda dəyişiklikləri bütün əhəmiyyətli aspektlər baxımından Milli Mühasibat Uçotu Standartlarına görə müsbət uyğun olaraq düzgün əks etdirir.

Bakı, Azərbaycan
18.03.2017

SMART AUDİT
Emil Məmmədov
Lisenziya № 080834 AT/115

Address: 12th floor Globus Center, 609 J.Jabbarli str. Baku, Azerbaijan AZ1065 Phone: +994 12 597 5515 / +994 12 597 5525 /
www.smartaudit.az email: office@smartaudit.az